

# Bir ailədən iki ölməz qəhrəman

**Vətən torpaqlarının bütövlüyü uğrunda gedən müharibədə Şəhidlik Zirvəsinə ucalan minlərlə cəsur, mərd vətən oğullarından biri də Əli və İslam qardaşlarıdır. Hər iki qəhrəman qardaşların həyat yolu bir olmuşdur. Onlar bir sinifdə oxudular, eyni işdə çalışdılar və eyni gündə uca Şəhidlik Zirvəsinə yüksəldilər.**

Əhmədov Əli İlqar oğlu 1993-cü il 5 yanvar tarixində Mingəçevir şəhərində anadan olub. O, 2000-2011-ci illərdə Mingəçevir şəhər 11 saylı məktəbdə oxuyub. 2011-2015-ci illərdə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Maliyyə fakültəsində təhsil almışdır. Təhsilini tamamladıqdan sonra hərbi xidmətə yollanıb. 2015-2016-cı illərdə Azərbaycan Ordusunun sülhməramlı kontingentinin tərkibində Əfqanıstanda xidmət etmişdir və "Əfqanıstan sülhməramlı missiyasına görə" medalı ilə təltif olunmuşdur. 2017-ci ildə müddətdən artıq hərbi qulluqçu kimi öz istəyi ilə sərhəd bölgəsində xidmətini davam etdirmişdir.

44 gün davam edən və Şanlı qələbə ilə bitən Vətən müharibəsində ilk gündən iştirak edərək 27 sentyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olmuşdur. Əlinin döyüş yoldaşlarının dediklərinə görə o, bir neçə dəfə ağır yaralansa da döyüşə davam etmişdir. Anası Sevinc xanım deyir ki, Əli kiçik yaşlarında atasını itirdikdən sonra ailənin yükünü öz üzərinə götürüb və ailənin böyük dəstəkçisi olub. Bunun üçün tələbəlik illərində də əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Qəhrəman şəhid Əhmədov Əli İlqar oğlu 28 sentyabr 2020-ci il tarixində Mingəçevir şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhid Əhmədov İslam İlqar oğlu 1994-cü il 19 sentyabrda Mingəçevir şəhərində dünyaya göz açıb. 2011-ci ildə Vətənə olan borcunu ödəmək üçün hərbi xidmətə yollanıb. Hərbi xidmətini Sumqayıt şəhərində başa vurub. Hərbi xidmətdə nümunəvi xidmətinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" medalı ilə təltif olunub. Anası Sevinc xanım şəhid oğlu İslam haqqında xatirələrində vurğulayır ki, o çox mehriban və istiqanlı bir oğul idi. Hər dəfə evə gələndə məni qucaqlayıb öpərdü. İslam döyüşə başlamazdan bir qədər əvvəl də son sözündə: "Əgər mənə nəsə olsa anama deyərsiniz ki, İslam səni lap çox istəyirdi, ürəyini çıxarıb verəcək qədər çox..." demişdir.

Vətənimizin qəhrəman oğlu İslam 44 gün davam edən Vətən müharibəsinin ilk günündən ayrı-ayrı istiqamətlərdə döyüşə atılıb. 27 sentyabr səhər saatlarında Suqovuşanın azadlığı uğrunda gedən şiddətli döyüşdə İslamın döyüş tankı düşmən tərəfindən vurulur və o qəhrəmancasına həlak olur.

Cəsur şəhidimiz İslam Əhmədov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allahdan onların ailələrinə səbir diləyirik. Onlar torpaq, Vətən uğrunda şəhid olaraq ən uca və müqəddəs məqama ucalmışlar. Bütün Azərbaycan xalqı onların qəhrəmanlığını və fədakarlıqlarını heç zaman unutmayacaq. Şəhidlər ölməz, Vətən bölünməz!!!

**Əli SADIQOV,**
**"Respublika".**